*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2019, № 1*
*Səhifə: 141-143* *ISSN: 2663-2926*

**UOT:** 821.512.162.09 Ülkər Yusifova*

# RİTUALLARDA MUSİQİ ALƏTİNİN ROLU

**Açar sözlər**: musiqi aləti, şamanizm, təriqət, mediasiya
**Key words:** musical instruments, shamanism, sect, meditation
**Ключевые слова:** музыкальный инструмент, шаманизм, секта, медитация

Qədim vaxtlardan etibarən musiqi alətləri sakral mahiyyət daşıyır. İnsanların inancına görə onlar ritual zamanı insan ruhunu digər dünyalar ilə əlaqəsini təmin edən əsas vasitələrdəndir. Musiqinin təriqətlərdə kəsb etdiyi məna Allaha qovuşma üçün vasitə, şamanizmdə hami ruha qovuşma üsuludur. Məhərrəm Qasımlı musiqini birbaşa mifik təfəkkürlə əlaqələndirir: "Aşıq sənətinin təşəkkülündə islam aləminin – sufi-dərviş sisteminin rolu nəzərə alınmalıdır. Musiqili mərasim və ya folklor aktına fövqəladə marağın mifoloji qaynağı daha güclü və qabarıq idi. Çünki əski mifik təfəkkürə görə, musiqi o biri dünya, ruhlar aləmi ilə bağlı idi və məhz buna görə də magik qüvvə sayılırdı" [1, s.4].

**Dəf.** Potapov "Altay şamanizmi" adlı kitabında şamanları təsvir edərkən Altay-sayan qamlarının müqəddəs atributu kimi dəfin mühüm rol oynadığını qeyd edir. O, bu kitabda "çalu" sözünə diqqət çəkir. A.V.Anonxin və V.Verbiçki bu sözün "tunqur" (dəf) sözü ilə eynilik təşkil etdiyini bildirir. Radlov isə tunquru monqollardan keçən ifadə, "çalu"nu isə – "ударит с размаху" kimi vermişdir. Potapov da şamanlarda "tunqur sözünün həqiqi mənada əvvəllər dəf anlamında işləndiyini, "çalu"nu isə dəfin ölmüş şamanın rəmzi kimi ağacdan düzələn dəstəyi mənasında işləndiyini yazır" [2, s.17].

Tarixi qaynaqlarda və Orta Asiyada yaşayan türk xalqları, eləcə də, Anadolu türklərində "çalğı, çalğu, çaluğu" kəlmələri musiqi alətlərinin hamısına verilən adlardır. Hal-hazırda demək olar ki, işlətdiyimiz bütün simli musiqi alətlərində "çalmaq" ifadəsinin də bununla bir əlaqəsi olduğunu zənn edirik. (Saz çalmaq, dəf çalmaq və s. kimi). Dəf sözünün mənşəyinə tarixi aspektdən nəzər salsaq görərik ki, şumerlərdə "dap" kimi işlənib, sonralar ərəb və digər dillərə keçmişdir. "Akkad yazılarında "giş dappu // adappu" "ağac nimçə" kimi işlənmişdir" [3]. Ancaq dəfin ilk dəfə ərəblər tərəfindən yaradıldığı və Süleyman peyğəmbər ilə Bəlqızın toyunda çalındığı Övliya Çələbinin "Səyahətnamə"sində qeyd edilir..

Əvvəllər ilahilər oxuyaraq gəzən dərvişlər dəfi ritmin pozulmaması üçün istifadə ediblər. Zikr edilərkən dəf çalınan təriqətlərdə isə "hay" və "hu" kimi sözlər söylənilir. Bu da o qədər söylənilir ki, təriqət mənsubu özünüdərkdən kənar çıxır, "Allaha qovuşur". Şamanizmdə şaman dəf ifa edərkən xüsusi ritmlə dualar, ayinlər icra edir. Dəfin şamanları və dərvişləri bu baxış bucağından da birləşdiyi ortaya çıxır. Şamanlar qamlılıq məqamında dəf ifa edirlər. Potapov öz kitabında dəfin ritual zamanı rolundan, şamanın onun vasitəsilə cilddəyişməsindən danışarkən qeyd edir: "Şaman davulun toxmağını alnına dayadı və o saat da alnının ortasında buynuz olan bir öküz donuna düşdü. Qadının qapadıldığı anbarın qapısını bir zərblə yerindən oynatdı və qadının ruhunu da götürüb yerə endi" [2, s.103].

**Saz.** Transformasiya olunan digər bir musiqi aləti olan saza nəzər salaq. İsrafil Abbaslı "Ozan (uzan) – qusan istilahı və sənətinə dair" məqaləsində saz sözünün fars dilindən keçdiyini qeyd edir:

* Folklor İnstitutu. E-mail: ulkeryusifova88@mail.ru

“Saz sözünün farsca saz kəlməsindən türk dillərinə keçdiyi bildirilir. Hər iki dildə “musiqi aləti” mənasındadır. Övliya Çələbi “Səyahətnamə”sində cəng, küdum, tambura, çöğür, ney, davul, zurna kimi musiqi alətlərini saz adıyla vermişdir” [4, s.60].

Saz ifaçısına aşıq deyilir ki, türk xalqları içərisində bu ad müxtəlif şəkillərdə Özbəkistanda, Türkmənistanda “baxşı”, Qırğızıstanda və Qazaxıstanda “akın”, “jirau”, Qafqaz türkləri arasında “ırçı (yırçı)” adları ilə tanınır.

Təriqətlərlə bağlı məlumatlarda Ələvi-Bəktaşi mənsublarının saz çalmaq məcburiyyəti olduğu qeyd edilir. Bəktaşi təriqətinə mənsub olan aşıqlar ifadan əvvəl Hz.Əlinin və digər dörd xəlifənin adına şeirlər deyir, aşıqların əksəriyyətinə müqəddəslər tərəfindən vergi verildiyini söyləyirlər. Biz bu ənənəni dastanların əvvəlində verilmiş ustadnamələrdə aydın şəkildə görə bilirik.

Füzuli Bayat rituallarda musiqi alətlərindən istifadəni birbaşa şaman oyununun transformasiya olunmuş variantı hesab edir: “Ələvi-bəktaşi və taxtaçı səmahlarının, şamanların davul çalaraq, mahnı söyləyərək oynamasına çox bənzəməsi, bu sonuncunun şaman oyununun inkişaf etdirilmiş şəkli olduğunu deməyə əsas verir... Ələvi və taxtaçılarda dərnək və cəm ayini zamanı göstərilən səmahlarda saz kimi instrumentlərdən istifadə edilir. Bu mərasimlərdə ikidən az və on ikidən çox saz olmazdı. Mahnının, oyunun və musiqinin birlikdə səmahı təşkil etməsi, dini ağırlıqlı sazlı, sözlü və oyunlu mərasimlərin keçirilməsi, səmahın, eyni zamanda ərkanın da əski şaman mərasimlərinin və göstərilərinin qalığı olmasına bağlıdır” [5, s.366].

Folklor nümunələrində daha çox dastanlarda rast gəldiyimiz yuxuda müqəddəslər tərəfindən badə aldıqdan sonra haqq aşığına çevrilən qəhrəman haqqın bütün sirrlərinə bələd olur. Qəhrəman buta aldıqdan sonra sözünü ifadə etmək üçün saz istəyir, sözünü ətrafdakılara rəmzlərlə başa salır: “Haqq aşığının da sazla dərdini deməsi, ruhi aləmlə bu şəkildə bağ qurması səma konsepsiyasının dastan variantıdır. Eyni ilə şamanlar da kamlık etdikdə davulun sədaları altında rəqs edir, ruhi-psixoloji (ekstaz) anında mənəvi aləmlə təmasa girirlər” [5, s.366].

Saz ifaçıları təkcə dastan söyləməklə qalmır, eyni zamanda aşıqların saz çalmaqla xəstənin dərdini yüngülləşdirməsi məlumdur. “Qırğızlarda ilk manasçı sayılan Keldibek şaman kimi təbiblik edir, doğan qadınların ağrılarını azaldırdı” [1, s.344].

**Qopuz.** Saz və digər simli musiqi alətlərinin ilkin variantı hesab edilən qopuzun ilk dəfə Dədə Qorquda demonik qüvvələr tərəfindən öyrədildiyi fikri istər Orta Asiya, istərsə də Anadolu və Azərbaycan folklorunda öz əksini tapır. Qopuzu öyrənən Dədə Qorqud qam-şamanın bütün funksiyalarını özündə cəm edir: “Dədə Qorqud qopuz düzəltməyi və onu necə çalmağı şeytanlardan-ruhlar aləminin nümayəndələrindən öyrənir. Elə bu səbəbdən də ibtidai cəmiyyətdəki tayfa başçılarının gələcəkdən xəbər bilən, ruhçağırma qabiliyyəti olan, görücü-baxıcı-bilici funksiyası daşıyan kahinləri – qam-şamanlar ayin icrası zamanı daha çox musiqiçi kimi fəaliyyət göstərmişdir [1, s.9].

Orta Asiya türklərinin folklorunda, xüsusilə qazax folklorunda Qorqud ilk şaman, baxşıların, ozanların hamisi, simli alətlərin yaradıcısı kimi göstərilir. “Ozan moğolcadan gəldiyi irəli sürülən ozan kəliməsinin əsli olub “saz şairi” mənasını sonradan qazanmışdır. “Divanü-lüğat-it-türk”də “atını davamlı önə keçirən adam” anlamında “ozitgan” kəliməsi və “çox irəli keçən” “ozgan at” mənasında yer almaqdadır [5].

Qazaxlarda saz ifaçısı “jırau”, nəğməyə “jır” deyilir. Jıraulara ilahi qüvvələrin vasitəsilə vergi verilir. Müqəddəslər, daha çox Qorqud ata heç vaxt musiqi alətində ifa etməyən adamın yuxusuna girərək ona dombra çalmağı öyrədir. Bu məcbur şəkildə edilir. “Rus tədqiqatçıları göstərir ki, buna müqavimət göstərən insan əzablara, xəstəliklərə və bədbəxtliklərə düçar olur” [6, s.16].

**Davul.** “Yakut və Altay şamanlarının davulu Orta Asiya dərvişlərinin “döyrə” dedikləri musiqi alətinə transformasiya edilmişdir” [2, s.127]. İslam ensiklopediyasında davulun ərəb dilindən gəldiyi və türk dillərində “tabul, tavul, tavıl, davul, Osmanlılar vasitəsilə də tabor və tambor/tambour şəkillərində keçdiyi” qeyd edilir [7]. Nəbi Bozkurtun islam ensiklopediyasında işlədiyi məqalədə e.ə III minillikdə Şumerlərə aid daş üzərində işləmələrdə yer aldığını, ilkin variantda toxmağın olmadığını və əllə çalındığını qeyd edir. Müəllif eyni zamanda, toxmağın sonrakı dönəmdə Orta Asi-

yada əlavə olunduğuna və toxmağın şamanda müqəddəs sayılan maral ayağından hazırlandığına diqqət çəkir. Şamanizmdə davul şamanın ritual zamanı o biri dünyaya getməsi üçün minik heyvanı, toxmaq isə qamçısı olduğunu bildirir.

Davulun və digər musiqi alətlərinin islam aləmində qadağan olunması dini ədəbiyyatda musiqi alətlərinin dini ibadətləri ertələdiyi, bu cür alətlərin içki içilən, qumar oynanan məkanlarda çalındığı və musiqinin islam öncəsi həyat tərzinin əlaməti olması ilə əsaslandırılır.

Davul təkcə təriqət mənsublarının ayinləri zamanı deyil, *hərbi ritualı* zamanı da ifa edirdilər. Türk xaqanlarının döyüşə başlamaq göstərişi ilə davulun çalınması rəzmi xarakter daşıyırdı. Onun orduda xidmət edən əsgərlərə ruh yüksəkliyi verdiyi məlumdur. Sonradan davulun idman yarışlarında – əsasən Türkiyə ərazisində güləş zamanı, toylarda zurna musiqi aləti ilə bərabər, Ramazan ayı boyunca insanları imsaka oyatmaq üçün istifadəsinə rast gəlirik.

Məqalədə gəlinən qənaət ondan ibarətdir ki, musiqi alətləri müəyyən ayinlərin icrası zamanı real aləmdən ayrılıb ruhlar dünyasına səyahət zamanı ifaçıya kömək edən vasitələr sırasındadır. Musiqi alətləri vasitəsilə yaradılan ritmin harmoniyası, rəqs, geyim, oxuma (dualar) ifaçıya real aləmi tərk etməyə imkan verir.

## ƏDƏBİYYAT


1. Məhərrəm Qasımlı. Bakı, "Ozan", 1996.
2. Потапов Л.П. Алтайский шаманизм. Ленинград, «Наука», 1991.
3. https://islamansiklopedisi.org.tr/def
4. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. III kitab. Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, Bakı, 1968.
5. Füzuli Bayat. Türk təkkə (təsəvvüf) ədəbiyyatı. Bakı, "Elm və təhsil", 2011.
6. https://islamansiklopedisi.org.tr/ozan
7. https://islamansiklopedisi.org.tr/davul#1


## ROLE OF THE MUSICAL INSTRUMENTS IN RITUALS

## SUMMARY


This article discusses the historical roots of musical instruments and the importance of their use in religious rituals. Musical instruments are auxiliary tools for shaman-mediator, and for members of the sect. They help shaman, dervish, and sheikh to communicate with the spiritual world in ecstasy way for creating a connection with the spirit.

The article discusses the historical roots of musical instruments, such as saz, drum, tambourine, gopuz, as well as the historical ways of their development.


## РОЛЬ МУЗЫКАЛЬНЫХ ИНСТРУМЕНТОВ В РИТУАЛАХ

## РЕЗЮМЕ


В данной статье рассматриваются исторические корни музыкальных инструментов и важность их использования в религиозных ритуалах. Музыкальные инструменты являются вспомогательным инструментом как для шамана-медитатора, так и для членов секты. Они помогают шаману, дервишу, шейху общаться с духовным миром в экстазе, создавать связь с духом.

В статье рассматриваются исторические корни таких музыкальных инструментов, как саз, барабан, бубен, гопуз, а также пути их развития.